# İZTİRABLARIN İŞIQLI YOLU,

## *yaxud Ulduz Qasımın “Tələbə gündəliyi” lirik romanı üzərində düşüncələr*

Yazı əzabı... Mənə elə gəlir ki, kino-filmlərdəki aktyorlara *“verilən əzablardan”* da betəri yazı əzabıdır. Həyatı yazmaq, düşüncələrini yazmaq, hətta ən yaxın dostlarına, sevgilinə *“belə”* yazmaq həmişə çətindir. Doğrudur, indi düşüncələr dəyişir, həyat hadisələrinə yanaşmalarda özünüifadə imkanları da dəyişir. Müəyyən müddət ərzində düşünüb-daşınıb məhrəm bir adamına qəlbindən keçənləri yazmaq istəyinin çətinliyi indi asanlıqla, sosial şəbəkələr vasitəsi ilə bir neçə cümlə içərisində sözə çevrilə bilir. Əlbəttə, görünür, həyatın ümumi axarını dəyişmək mümkün deyil. Texnoloji imkanlar artdıqca, canlı ünsiyyət imkanları azalır. Ancaq bu, o demək deyil ki, insan öz hissləri ilə cazibə yaratmaq gücünü itirir.

Həyat göstərir ki, adamlar sosial şəbəkələr vasitəsi ilə - onlayn yolla, virtual qaydada ünsiyyətə can atırlar. Əgər bu onlayn yazışmaların hamısını yazıya gətirmək mümkün olsaydı - yəni aşkara çıxarmaq mümkün olsaydı, heç də Fransuaza Saqanın *“Salam, kədər”*, lap elə tarixi-klassik ədəbi örnək olaraq Yohann Volfqanq Hötenin *“Gənc Verterin iztirabları”*... əsərlərindən sonra yüzlərlə sentimental, lirik povestlərin, hətta dramatik sonluqla bitən həyati əsərlərin şahidi ola bilərdikmi?

Bəs ənənə hansı şəkildə, necə yaşayır? Doğrudur, bizim ədəbi tədqiqata cəlb etdiyimiz yazıçı Ulduz Qasımın *“Tələbə gündəliyi”* lirik romanının çap olunduğu zamanda (2015) hələ ki, *“sosial şəbəkə romanları”* geniş yayılmamışdı.




# 1. İNSAN VƏ TƏBİƏT DOĞMALIĞI

Bütün hallarda yazı, özü də çap yazısı mənəvi mühit üçün xüsusi əhəmiyyət kəsb edir. Yəni çap yazısı yaddaş üçün qaynaq rolu oynayır. Çap yazısı olmadan hələ ki indiki zamana qədər qarşımıza çıxan mətn qeyri-ciddi mahiyyət daşıyır. Bəlkə də bu, o qədər də düzgün deyil. Çünki bütün hallarda yazıya gəlmiş fikir, düşüncə məhsulu cəmiyyətin mənəvi inkişafına təkan verirsə, o dəyərlidir, qiymətlidir.

Ulduz Qasımın *“Tələbə gündəliyi”* lirik romanı hansısa “Aydan” gəlmiş bir müəllifin düşüncələri deyil; ötən əsrin 70-80-ci illərini açıq dünyagörüşü, fəal düşüncə ilə müşahidə edə bilmiş, hələ üstəlik ötən əsrin 60-cı illərindən üzü bəri zamanı yaddaşına yığmış bir gəncin nostalji duyğularının təsiri altında qələmə alınmış bir əsərdir. Bu əsərin əsas təsir gücü, bu əsərin cazibə gücü onunla bağlıdır ki, həyatla daha çox səsləşir.

Həyati olan nə varsa, əgər yaddaşda yaşayırsa, o köhnəlmir; xüsusilə yaddaşa yazılanların yazıya gətirilməsi, yazı ilə əks-sədaya çevrilməsi daha çox həyati olur, həyati olan isə aradan on illər, hətta yüz illər keçsə belə, yenə müasir olur; bir sözlə, köhnəlmir.

Ulduz Qasımın *“Tələbə gündəliyi”* lirik romanı haqqında üzdən danışmalı olsaq, bir gəncin öz həyatı haqqında düşüncələrinin yazıya gətirilmiş nümunəsini üzə çəkmiş olarıq. Əslində, bir insan olaraq hər kəsin mənəvi mühitinin ayrıca bir qitə olduğunu və bu qitənin nə dərəcədə kəşf olunub-olunmadığını diqqətə çəkməli olsaq, onda deməliyik ki, bütün insanların mənəvi mühitlərini ayrılıqda öyrənməklə insanlığı ən uca mərtəbəyə qaldırmaq mümkün olardı. Bir sözlə, hər bir insan - qitə fərdi olaraq öyrənilərsə, insan mənəviyyatının təbiətində yaşayan qaranlıqları dağıtmağın mümkünlüyündən danışmaq olar.

Ulduz Qasımın *“Tələbə gündəliyi”* lirik romanı bir gəncin yaşadığı həyatın mahiyyətinə işıq salır. O, bütün varlığı ilə həyat uğrunda mübarizə aparan - özü də lap elə beş yaşından üzü bəri həyat uğrunda mübarizə aparan bir uşağın taleyinin başlanğıcından tutmuş sevgi bulağından su içən çağınacan yaşadığı zamanı əhatə edir. Hətta sevgi bulağından su içərək sevgi iztirablarını yaşamağını da bu əsərdə görmək mümkündür. Hissiz, duyğusuz, sevgisiz, sevincsiz, kədərsiz... yaşamaq yəqin ki, yaşamaq deyil. Elə bəri başdan onu demək yerinə düşər ki, bu əsər insan həyatının sevgi ilə, sevinclə, kədərlə müşayiət olunmasında dəyər kəsb etdiyini diqqətə çəkir.

Ulduz Qasımın *“Tələbə gündəliyi”* lirik romanının yazılma tarixi əsərin sonunda *“Bakı, 1984-cü il”* kimi göstərilib. Ancaq əsər 2015-ci ildə nəşr olunub. Doğrudur, elə əsərlər var ki, ötən zamanı özündə ehtiva edir. Amma hər halda sonrakı zamanlarda yazıldığını da gizləyə bilmir. Ancaq Ulduz Qasımın *“Tələbə gündəliyi”* əsəri göstərir ki, bu əsər yazıldığı zamandan çox-çox sonralar, ən azı bir qərinə sonra işıq üzü görüb.

Mən qətiyyən o fikirdə deyiləm ki, bu əsər vaxtında, yəni ötən əsrin 80-ci illərinin ortalarında çap olunsaydı, mənəvi mühitimizdə müəyyən dəyişikliklərə səbəb ola bilərdi. Amma bir həqiqət kimi buna inanıram ki, bu əsər vaxtında çap olunsaydı, gənclərimiz 80-ci illərinin axırlarında, 90-cı illərin əvvəllərində baş verən mənəvi, siyasi kataklizmlərə qarşı mübarizədə öz bütövlüklərini qorumaq baxımından daha çox silahlı ola bilərdilər.

Kitabın annotasiyasında əsərin mahiyyətini ehtiva edən qeydləri diqqətə çəkmək, zənnimizcə, düşüncələrimizin istiqamətini qətiyyən dəyişməz: *“Ulduz Qasımın “Tələbə gündəliyi” romanında Sovet illərində əyalətdə yaşayan, jurnalist olmağı arzulayan qızın həyatından bəhs olunur. Sitarə qohumlarının, yaxınlarının inamsızlığına etirazına baxmayaraq çətinliklə də olsa, “Jurnalistika” fakültəsinə qəbul olunur. Amma tale onun bütün arzularını tez yerinə yetirmir...*

*Romanda Sovet illərindəki kənd, o illərin tələbələrinin, jurnalistlərinin gündəlik həyatı, o illərin ailə dəyərləri, davranış kodeksləri barədə xeyli mənzərələr, məlumat yer alır”*. Bu qeydlər ümumi oxucu əhatəsi üçün nəzərdə tutulub. Görünür, annotasiyanı hazırlayan nəşriyyat adamı əsərin mahiyyətini yaxşı qavrayıb. Hətta əsər içərisində gizlənən sirlərə toxunmadan oxucuda maraq doğura biləcək işıqlar *“yandırıb”*.

Ulduz Qasım ixtisas baxımından jurnalistdir. Onun tərcümeyi-hal qeydlərini diqqətlə oxumuş bir müəllif kimi qeyd edirəm ki, o, orta məktəbi də yüksək qiymətlərlə bitirib. Yəni onun mənəvi yüksəlişinə doğru istiqamətini özünün güclü potensialı müəyyən edib.

*“Tələbə gündəliyi”* əsərinin müəllifi artıq universitet auditoriyasına qədər tanınan bir yazıçı idi. Doğrudur, hələlik onun yazıçılığı jurnalist yazıları ilə xarakterizə olunurdu. Rayon qəzetində çap olunmuş yazıları ilə təsdiqlənirdi. Hələ tələbə ikən respublika mətbuatında da öz imzası ilə görünməyə, tanınmağa başladı. Cəsarətli yazıları ilə, xüsusilə, seçdiyi dəqiq obyektlərlə Ulduz seçdiyi peşədə özünü təsdiq etmək gücündə olduğunu sübut etməkdə idi. Bir sözlə, *“Tələbə gündəliyi”* əsəri sözə gəlməkdə olan gəncin öz mühitini bədii aspektdə ifadə etmək imkanlarını da təsdiq edirdi. Müəllif 2015-ci ildə nəşr etdirdiyi *“Tələbə gündəliyi”* lirik romanını Ernest Henridən gətirdiyi *“Biz hamımız elə yazmalıyıq ki, bizi təkcə oxuyub, başa düşməklə kifayətlənməsinlər. Elə yazmalıyıq ki, özümüz də yazdıqlarımızı ömrümüzün istənilən vaxtında başa düşə bilək. Bir qələm adamı özünü jurnalist kimi ancaq və ancaq belə təsdiq edə bilər!”* sitatı ilə sanki əsərinə başlanğıc verir. Elə bu sitatla məramını da, yazı üslubunu da, həyat hadisələrinə münasibətini də ifadə etmiş olur. Əslində, bu sitat onun yaradıcılıq məramnaməsi kimi təkcə bu əsəri üçün deyil, gələcək yaradıcılığı üçün də proqram olaraq özünü faktlayır.

Ümumiyyətlə, bədii yaradıcılıqda, həyatı təsvir etməyə başlayarkən müəlliflər müxtəlif üsul və vasitələrdən istifadə edirlər. Ancaq Ulduz konkret olaraq Ernest Henridən seçdiyi sitatın mahiyyətini yaradıcılıq kredosu olaraq qəbul edir və bunu lirik-romantik povestinin (müəllif bu əsəri *“lirik roman”* adlandırır) bütün hərəkəti boyu düşüncəsinin önündə saxlayır.

Maraqlıdır ki, əsəri oxuyan hər bir kəs ilk cümlələrdəncə həyatla nəfəs alan bir insanın daxili-mənəvi aləminə qovuşur.

Müəllif əsərinin əvvəlində ədəbiyyatşünaslıqda məşhur olan *“proloq”* - başlanğıcından istifadə edir. Bir anlığa mənə elə gəldi ki, bütün əsərin özü müəllifin varlığı olaraq 5-10 cümləyə də sığışa bilər və elə bu əsər üçün proloq kimi seçilmiş mətn də bu tələbə cavab verər.

Müəllif *“Proloq”* adlandırdığı mətndə yazır: *“Bunların hamısı elə bil mənim ürəyimdə baş vermişdi. Baş vermiş hadisələri ömrümün çoxdan ötüb-keçmiş bu illərinin bütün sevinci, xoşbəxtliyi, kədəri, qəmi elə bil əslində ötüb-getməmişdi, baş verməmişdi. Hamısı olduğu kimi bütün sözüylə mənim qəlbimə, ürəyimə yığışıb, qəlbimə toplanıb. Mən onları xatırlamıram, gözümün önünə gətirmirəm, yaşayıram, hiss edirəm. Elə bilirəm hamısı da birdən baş verir, ardıcıl yox...*

*Hərdən də fikirləşirəm ki, onları məndən bircə anlığa alsalar, ömrüm çiliklənər, parça-parça olar, heçliyə, boşluğa çevrilər, mən bir varlıq kimi mövcud olmaram. Axı dünyada elə dərd, elə kədər var ki, onların əlindən qaçmağa, gizlənməyə bircə göz qırpımında daldalanmağa yer tapmasan da, o sənin üçün əzizdir, doğmadır. Heç vaxt onu başqasına verə bilməzsən. Heç vaxt, heç zaman...*

*Belə olsa, axı sən bir insan kimi də var olmazsan. Heç olarsan, adi də olmayan bir heç...*

*Nə qədər ağrılı, acılı olsa da, hər bir insana onun xatirələri əzizdir, doğmadır. Xatirələr, yaşananlar bir xəzinədir, ancaq və ancaq sənə məxsus olan bir xəzinə. Bu, elə bir xəzinədir ki, səndən heç kim onu ala bilməz. Bəzən zamanında ağladan bir hadisə xatirəyə çevriləndən sonra, yadına düşdükcə üzünü güldürür. Bəzən də əksinə, baş verdiyi vaxt səni sevindirən, güldürən şeyləri xatırladıqca kədər bürüyür səni, hamıdan gizlənib ağlamaq istəyirsən.*

*Amma üzünü güldürsün, ya ağlatsın, fərqi yoxdur. Xatirələr sənindir. Yaşananlar sənindir”*. Təkcə elə proloq mətninin içərisinə yığılmış enerjini sözə çevirməklə müəllif çox dəyərli bir əsər yaradacağına oxucunu inandırır. Ümumiyyətlə, insan həyatının xatirələrlə bağlı olan tərəfi onun əlindən çıxmış olan sərvətdir. Bunu heç vaxt qaytarmaq mümkün olan şey deyil. Çünki tarix olan artıq yaddaşdır. Yaddaş isə pul deyil ki, onu maddiyyata çevirib xərcləyəsən.

**(Davamı 5-ci səhifədə**

***(Əvvəli 4-cü səhifədə)***

# 1. İNSAN VƏ TƏBİƏT DOĞMALIĞI

Yaddaş mənəvi sərvətdir. Sənin üçün təcrübə mahiyyəti daşıyır, yaddaşından istifadə elə, gələcəyində, yəni ehtiyatda qalan həyatında daha az səhvlərə yol ver. Axı insan həyatı bütün görəcəyində orijinal olduğuna görə səhvlər də qaçılmazdır. Zənnimcə, Ulduz Qasımın *"Tələbə gündəliyi"* əsəri lirik-romantik povest olsa belə, həqiqətən bir həyat romanı oxuyacağımız haqqında ilkin mesajlarla bizi silahlandırır.

Müəllif əsərini ömrünün axarında xüsusi mərhələ olan *"1 sentyabr"* tarixçəsi ilə başlayır. Və ilk dəfə tələbə bileti aldığı gün kimi bu tarixi xarakterizə edir.

Ulduz Qasım əsərinə psixoloji bəhanə kimi tələbə bileti aldığı günü əsas götürür. Və bu günə qədərki olayları da yazmağı qərara alır. Məlum olur ki, Ulduz Qasımın əsərinin qəhrəmanı Qarabağın Arazqırağı kəndlərin birində doğulub-böyüyüb. Onun yazısının ilk qeydləri də sanki lirik bir nəğmənin başlanğıcı təsirini bağışlayır: *"Bizim kəndimiz Araz çayının sahilində yerləşir. Baxanda o taydakı "Üçtəpə" dağları görünür. Uşaqlığımının ən sirli dağları. İndiyə qədər yadımdan çıxmayan, əlçatmaz, ünyetməz sirr dünyası. Nağıllar aləmi. Həmişə o dağlara baxanda "arxasında nə var görəsən?" deyə düşünürdüm. Bəlkə də ən böyük arzumdur onun zirvəsinə qalxmaq sanki o dağların zirvəsinə qalxsaydım, bütün sirrlərin üstü açılacaqdı. Heç bir qəmim-qüssəm qalmayacaqdı. Hamı xoşbəxt olacaqdı yer üzündə. Bütün dərdlərə dərman tapılacaqdı...*

*Hacı Məmmədqulular kəndi elə böyük olmasa da, kiçik də deyildi. Özünün təsərrüfatı, heyvandarlığı vardı. Orta məktəbi, xəstəxanası, kinoklubu, kitabxanası, mağazaları, yeməkxanası, rabitə şöbəsi vardı. Hətta qadın və kişi bərbəri, dərzisi də fəaliyyət göstərirdi. Yaşamaq üçün demək olar ki, hər şəraiti vardı. Günügündən evlərin və ailələrin sayı artırdı. Hər sözümüzün başı Arazdı, laylamız onunla çalınır, şeirimiz onunla yazılır, musiqimiz onunla bəstələnir, onunla başlayıb onunla qurtarırdı".* Əsəri, ümumiyyətlə, hər hansı bir bədii mətni oxumaq, həm də dərk edə-edə oxumaq həm xüsusi vərdiş tələb edir, həm də əziyyətə qatlaşmaq gücü istəyir. Ancaq Ulduz Qasımın *"Tələbə gündəliyi"* lirik povesti sözün həqiqi mənasında axıcı bir nəğmə təsiri bağışladığı üçün (elə bunu təqdim olunan mətn də deyir) oxumaq heç də çətinlik törətmir. Özü də müəllif əsərini yalnız düşüncələrlə aparmır, yeri gəldikcə həyati epizodlardan da istifadə edir. Yəni yaddaşında ilişib-qalmış, əgər belə demək mümkünsə, atasından, anasından eşitdiyi ötüb-keçmiş əhvalatlardan da yeri gəldikcə istifadə edir. Və parlaq həyati epizodlar qısa müddətə də olsa, gözlərimizin önündə çox yetkin obrazlar silsiləsi yaradır.

Ulduz Qasımın *"Gülən nənə"* obrazı xüsusi ilə cəsarətinə görə, mənəvi bütövlüyünə görə əsərin yalnız əvvəlində epizodik şəkildə xatırlansa da, əsərin axırına qədər öz gücünü qoruyub-saxlayır. Əsərin lirik qəhrəmanı gənc qızın timsalında biz, nənədən gələn keyfiyyətin necə yaşarı olduğunu axıra qədər müşahidə edə bilirik. Oxucularımız üçün də maraqlı olar, qısa bir epizodda xatırlanan Gülən nənə obrazını müəllif bütöv qadın şəxsiyyəti olaraq necə təqdim edirsə, onun öz tərzində görmək maraqlı olardı: *"Kəndimizin sədri qonşu kənddən idi. Adına da dəli Şərəf deyirdilər. Hamı ondan qorxurdu. Amma deyilənlərə görə bir dəfə mənim nənəm onu döyüb. Hamı pambıq yığmağa gedirmiş. Eşidib ki, Gülən arvad var. O işə getmir. Sədr eləməyib tənbəllik, nənəmgilə gedib. Deyib ki, xeyir ola, sən niyə evdə oturursan? Nənəm də ona cavab verib: - Ay oğul, mən 80 yaşıma gedirəm. Mənim işləyən vaxtım deyil. Vaxtında çox işləmişəm. Övladlarım, nəvələrim işləyirlər, düz ünvana gəlməmisən.*

*Dəli Şərəf özündən çıxır: - Ay arvad, sən mənim sözümü çevirirsən? Mən bu kəndin sədriyəm.*

*- Sən bu kəndin sədri ola bilərsən, ancaq mənim ağam ola bilməzsən. Mən yaşlı arvadam, sənin işçin də deyiləm.*

*Sədr özündən çıxır. Nənəm götürür ağacı, bir neçəsini vurur dəli Şərəfə. O, güclə qaçıb qurtarır canını. Bir neçə il kənddə deyib-gülürdülər bu hadisəyə. Ümumiyyətlə, deyilənlərə görə nənəm lap Həcər kimi bir qadın olub, adı dastanlara düşməsə də belə idi. Bir dəfə də müharibə vaxtı kəndin sədri kişilərin müharibəyə getməyindən istifadə edirmiş. Gündə bir qadının qapısını çalırmış. Bir gün tarlada işləyən Gülən arvada yaxınlaşır (yəni, mənim nənəmə): - Nə var nə yox, ay Gülən?*

*- Sağ ol, ay sədr, xeyir ola?*

*- Axşam bir çay içməyə gəlmək istəyirəm.*

*Bunu dediyini görüb sədr. Nənəm onu atdan salıb alaq təmizlədiyi oraqla başını kəsmək istəyib. Güclə yığışıb sədri onun əlindən alıblar.*

*-Sən nə qədər şərəfsiz bir insansan! Millət düşmənə sinə gərir, sən də burada ərsiz qadınların qapılarını döyürsən gecələr. Bir də səni buralarda görsəm başını kəsəcəm.*

*Sədr qorxusundan bir də nənəmin işlədiyi tarlaya yaxınlaşmayıb. Bir də anam deyir ki, nənəm gecə yatanda yatağının altına balta qoyurmuş. Bunu kənddə bilməyən yoxdur".* Müəllif, zənnimizcə, şəxsiyyət baxımından sözün həqiqi mənasında şərəfsiz olan bir insanın adını *"Şərəf"* olaraq təqdim etməsi qətiyyən təsadüfi ola bilməz. Bununla Ulduz Qasım mənəvi düşüncədə təzadlardan istifadə ilə hərəkət yaratmaq istəyib, özü də istəyinə nail olub. Bu məqamda çox maraqlı bir situasiya da düşüncəmdə təzahür edir. Axı indi Azərbaycanda qadın bütövlüyünün, qadın şəxsiyyətinin yenilməzlik obrazı olan Həcəri də qınaq obyektinə çevirmək istəyənlər çoxalıb. Bir sözlə, Həcəri gözdən salmaq, Azərbaycan qadınlığının tarixi əzəmətinə kölgə salmaq, Həcərin timsalında yenilməzlik obrazını dağıtmaq istəyi ilə televiziya tribunalarından istifadə edənlər üzə çıxıb.

Düşünmək olar ki, Ulduz Qasım tarixi mənəvi dəyərləri uca tutan ayrı-ayrı epizodlarla elə Azərbaycan xalqının tapındığı müqəddəs meyarları qorumağa çalışır. Əks təqdirdə o, öz nənəsinin timsalında Həcəri hədər yerə yada salmazdı. Bir sözlə, sənətkar üçün öz xalqının təbiətini qorumaq missiyasına hər yerdə imkan var, təki onun öz xalqının tarixi keçmişinə sevgisi olsun, məhəbbəti olsun. O, yaşadığı mühitin içində tarixi dəyərləri görə bilsin. Bir sözlə, sənət hər bir vaxt yazıçıya tarixi həqiqəti diktə etmək üçün köməkçi vasitədir. Əsil yazıçı bu vasitədən yeri gəldikcə tutarlı və dəqiq istifadə etmək imkanını əlindən buraxmamalıdır.

Oxucuya elə gəlir ki, müəllif bundan sonra şərəfsizlik missiyası daşıyan Şərəf adlı sədrlə həyatsevərlik missiyasının daşıyıcısı olan Gülən arvadla bağlı macəranı davam etdirəcək. Ancaq o, bu yolla getmir. Ardıcıl olaraq öz hisslərinə qayıdır. Ən başlıcası, lirik "mən"in istəyini, iradəsini idealizə edir. Onun həyat yolunu bir an da olsun unutmur. Bir sözlə, lirik *"mən"* yenə öz həyatına qayıdır. Ancaq əsər boyu həyati müşahidələr yeri gəldikcə ayrı-ayrı epizodlarda özünü göstərir.

Hələ şagird olarkən gənc qızın yazıları respublika mətbuatına doğru yol alıb. Əlbəttə, həmin dövrü hamımız təsəvvür edə bilərik, gözlərimizin önünə gətirə bilərik. Həmin dövrdə çap olunmaq, imzası ilə görünmək o qədər də asan deyildi. Şübhəsiz, *"Tələbə gündəliyi"* əsərinin qəhrəmanı üçün də mətbuatda görünmək o qədər asan olmazdı.



Əsər elə ilk səhifələrdəncə sonuna qədər poetik daxili monoloq təsiri bağışlayır. Biz əsərin qəhrəmanının təbiətdə gördüyünə münasibətini onun poetik əhvalda düşüncələri kimi müşahidə edirik: *"Həmişə Bahar bayramından əvvəl yaz gəlmək istəyəndə aşağı bağçamızda mavi gözlü çiçəklər açardı. Baharın ilk çiçəyi. O qədər gözəl idi ki! Baxmaqla doymaq olmurdu. Saatlarla oturub o çiçəyin gül camalına tamaşa edirdim. Dünyada mənim ağlımı alan iki gözəllik vardı. Birincisi, bağçamızda xalı kimi sərilən mavi çiçəklər, bir də yaz-yay vaxtı gecə yarısı mavi göylərə səpələnən, ömürlük mənim üçün sirr olaraq qalan ulduzlar. Allahın yaratdığı bu gözəlliyi necə vəsf edəcəyimi düşünürdüm. Düşünürdüm, ya Rəbbim, sənin qüdrətinin qarşısında bütün sözlər acizdir".* Ulduz Qasım müşahidə olunarsa, əsəri boyu həm düşüncələrini poetik əhvalda qələmə alır, çünki onun bu əsər üzərində mənəvi gəzişmələri mənsur şeirlər silsiləsi kimi üzə çıxır. Həm də bu azmış kimi ayrı-ayrı məqamlarda şeir parçalarından, bayatılardan, mahnı mətnlərindən də yerinə görə məharətlə istifadə edir. Əsas da odur ki, həmin mahnı mətnləri, şeir parçaları, bayatılar sanki mətnin özündən doğulur. Bu da onu göstərir ki, lirik-romantik povesti ilə oxucularla ünsiyyət qurmaq istəyən sənətkar özü istəyərəkdən, yaxud da istəməyərəkdən şairliyini də unutmur.

Əsər uşaqlığını, ilk gəncliyini kənddə, Aran-yaylaq yollarında, üstəlik yaylağın qeyri-adi təbiət dönəmlərində keçirdiyi günləri də yazıya gətirən yazıçı təəssüratı təsiri də bağışlayır. Müəllifin təsvirlərində Qarabağ camaatının tərəkəmə həyatı ilə müşayiət olunan məişəti də yazıdan keçir, özü də canlı yazıdan. Biz sanki onun özü ilə birgə atasının köçlə düşərgə saldığı yaylağın özünə gedirik. Müəllifin təsvirlərində özü demiş, *"o çiçəklərin ətrindən"* az qala oxucunun özü də bihuş olur. Ulduz Qasımın təsvirlərində təbiətin ecazkarlığı, əgər belə demək mümkünsə, 77 rəngin özü ilə birgə təzahür edir: *"Hər gün bacımla bərabər dağlara, dərələrə dırmaşırdıq. Güllərin çiçəklərin hamısından dəstə-dəstə yığıb, evimizə gətirərdik. Torba-torba kəklikotu, çayçiçəyi, qantəpər toplayardıq. Yəqin ki, mən sizə o ətri, o gözəlliyi olduğu kimi çatdıra bilmərəm. Qələm böyük tanrının yaratdıqlarını vəsf etməkdə acizdir. Minlərlə, yüzlərlə əsərlər yazılsa belə... Bilirsiniz təkcə yaz-yay aylarındakı rənglər, gözəlliklər deyil, payızdakı əsrarəngiz gözəllikləri də deyirəm. Ağacların yarpaqlarının rəngini saymaqla qurtarmaz. Saatlarla durub düşünmüşəm meşələrdə, bağlarda o rənglərə baxa-baxa".* Gözlərimizin önündə hansısa bir rəssamın çəkə biləcəyi bir mənzərədə belə təkrar olunmayacaq görüntülər gözümüzü qamaşdırır. Ümumiyyətlə, Ulduz Qasım bütün yaradıcılığı boyu - digər əsərlərində də - təbiət təsvirlərinin ustadı olduğunu nümayiş etdirir. Ən başlıcası, onun təbiət təsvirləri ona görə xüsusi əhəmiyyət kəsb edir ki, bu təsvirlərlə biz həmin mühitdəki insanların hisslərini, duyğularını həmahəng görürük. Elə ən azı Ulduz Qasımın bir müəllif hisslərini onun ədəbi qəhrəmanının düşüncəsində keçən fikir burulğanlarını bu təbiət yaşantıları ilə bir yerdə müşahidə edə bilirik: *"Göz yaşı kimi dupduru dağ çaylarındakı müxtəlif şəkilli daşları toplayardıq. O daşlara baxıb düşünərdim. İçimdən nələr, nələr keçərdi. Öz suallarıma özüm cavab tapmağa çalışardım. Bəzən də cavab tapa bilmirdim bu hikmətlərə. Min rəngi, min gözəlliyi vardı çəmənlərin, düzlərin. Kimlər gəlib keçmişdi bu yerlərdə, bu dağlar dərələr nələrin şahidi olmuşdu?! Bu yurd yerlərində kimlər ağac sancıb gün keçirmişdi?! Babalarımız, nənələrimiz bu dupduru bulaqlardan su içərkən kim bilir nələr düşünmüşlər mənim kimi?! Hərdən mənə elə gəlir ki, bu çaylar dağların göz yaşıdır, itirdiyi igidlər üçün ağlayır dağlar".* Kim deyə bilər ki, bu nəsrlə yazılmış cümlələr ən azı mənsur şeir deyil. Zənnimcə, əgər Ulduz Qasım bu poetik təbiət təsvirlərini ayrıca poetik lövhələr kimi nəşr etdirsəydi, onun təbiət təsvirlərini dəyərli poetik örnəklər kimi qəbul etməyə kimsə şübhə etməzdi. Çünki müəllifin dağlar obrazındakı əzəməti nə qədər görürüksə, bu dağların insan xislətini də bir o qədər aydın görə bilirik. Dağlar nə qədər sərt və qürurludursa, bir o qədər də kövrəkdir, qəlbi sınıqdır, yaralıdır.

Ulduz Qasımın dağları bu cür təsvir etməyinin çoxlu və müxtəlif səbəbləri var. Yeri gəldikcə Ulduzun özü də bu səbəblərə aydınlıq gətirir. Ən azı, *"kimlər gəlib-keçib bu dağlardan"* deməklə bizim də diqqətimizə çatdırır ki, dağlar nə üçün yeri gələndə qəzəblidir, nə üçün yeri gələndə bu qədər kövrəkdir. Cansız dağları, əgər belə demək mümkünsə, canlı insanla müvaziləşdirmək üçün bundan o tərəfə daha nə demək olar? Onu da deyim ki, çayları dağlarla qovuşdurmaq istəyi çayları dağların ruhu ilə bağlamaq duyğusu tarixən ədəbi mühitimizdə olub. Hətta bir vaxt (1997) görkəmli şairimiz Zəlimxan Yaqubla bağlı bir yazımı da mən *"çaylar dağların kükrəyən ruhudur"* adlandırmışdım. Görkəmli sənətkarımız çay və dağ obrazlarının bu qədər doğma olduğunu bu yazının timsalında dəfələrlə qiymətləndirdi. Söz odur ki, dağ, çay, dərə, bulaq... motivləri bütöv bir mahiyyətin ayrı-ayrı hissələri kimi təzahür edir və bütölükdə bu obraz vətən mahiyyətini canlandırır.

***(Davamı 6-cı səhifədə)***

# 1. İNSAN VƏ TƏBİƏT DOĞMALIĞI

*(Əvvəli 5-ci səhifədə)*

Əsərin ən maraqlı fəsilləri dağların kədərqarışıq əzəmət obrazına həsr olunub. Müəllif həm də həmin dağlara - Əyriqara, Murad təpəsinə, Qısıra, Qırxlara, Murxuz yaylaqlarına, Arxaşana, Qotur istisuya... nostalji düşüncələrini, yəni Azərbaycan xalqının tarixi yerlərinə həsrətli düşüncələrini məhz bu qeydlərlə ifadə edir.

Müəllif dağlarda yaşamağın sirli-soraqlı təhərinə də işıq salır. Və hətta elə məqamlara işıq salır ki, onu özü görməsə, özü şahid olmasa bu məqamlara ən yüksək fantaziya ilə belə yazı görüntüsü verə bilməzdi: *"Bir də görürdün axşam-axşam dağlara çən gəlir. Göz-gözü görmürdü. Hamı çırağını yandırıb alaçığda oturardu. Hələ indiyə kimi düşünürəm ki, çobanlar yolu necə tapırdılar? İnsan ayağının altını görə bilmirdi. Bəkə hissləri ilə, bəlkə hər gün sürüləri çöllərə aparıb-gətirən kiçicik cığırlarla? Bəlkə bu da onların peşəsinin sirridir".* Zənnimcə bu qeydlər lap elə min il bundan sonra da həmişə oxunaqlı olacaq. Çünki rəssam əli ilə çəkilmiş bir lövhədir, baxmayaraq ki, sözlə rənglər görünür.- Müəllifin özünün dediyi kimi bu lövhələr onun beyninə şəkil kimi çəkilib. Yaddaşına həkkak əli ilə yazılmış xatirələrdir.

Ulduz Qasımın ilk gəncliyi, bəlkə də yeniyetməliyi, hələ bəlkə uşaqlığı ilə bağlı düşüncələrinin sorağı ilə irəlilədikcə maraqlı hadisələrlə qarşılaşırıq.

Məlumdur ki, türk mənəvi mühiti həmişə atla bağlı olub. Demək olar ki, başqa heç bir xalqda atla ünsiyyət türk mifoloji düşüncəsindəki qədər canlı deyil. Kiçik bir epizod xarakteri daşısa da Ulduz Qasımın da *"Tələbə gündəliyi"*ndə belə bir məqamla qarşılaşırıq: *"Dağlarda ən çox sevdiyim bir şey də vardı. Atamın ağ atı ilə gəzintiyə çıxmağı. O qədər gözəl və ağıllı at idi ki! Ən son il yadımdadır. Ağ atla bir neçə dəfə qonşu məhləyə getmişdim. Bir dəfə Turşsuya gedəndə yağış yağmışdı. Yer sürüşkən idi. Dağın döşü ilə gedirdik. Birdən atın ayağı sürüşdü. Elə qorxdum ki... Amma o ağıllı heyvan yerə yatdı, mən endikdən sonra yenidən ayağa qalxdı və biz yolumuza davam etdik".* Zənnimcə, müəllifin bu mətnin sonundakı *"davam etdik"* ifadəsi də yalnız həmin hadisə ilə bağlı deyil. Müəllif bununla həm də türk mənəvi mühitinin tarixi keçmişdən üzü bəri atla davam edən yoluna işarə edir. Əsərin lirik qəhrəmanı həyatının sonrakı çağlarını da atsız təsəvvür etmir. Hətta adlı günlərində belə yenə atsızlıq iztirablarını yada salır. Və atlı günlərini həmişə həyatının ən üstün çağları kimi dəyərləndirir. Müəllif əsərinin qəhrəmanı ilə yaşadığı mühitin saflığını idealizə edir. Bütün hallarda bu mühiti uca tutur. Bu mühitdəki insanların təbiətlərini orijinalda olduğu kimi təqdim edə bilir.

İki qardaş və bir bacı olaraq atadan, anadan ayrı düşmüş üç uşağın yaylaq həyatından yaşantılar son dərəcə həyəcanlı təsvirlərlə oxucunu ovsunlayır. 7 yaşlı oğlanın tufan zamanı çadırın künclərindən tutmağı, 5 yaşlı yaddaş sahibinin 3 yaşlı balaca bacısının belə bir vəziyyətdə təbiətə qarşı dözüm göstərmələri əslində insanın nəyə qadir olduğuna sübut üçün ilkin imtahan cizgiləri kimi yadda qalır. Və sanki biz bununla əsərin lirik qəhrəmanının, yəni bizim sevgi ilə boyunu oxşadığımız Sitarənin ilk həyat imtahanından necə keçdiyinə bu görüntülərin işıq salmağı ilə şahidlik edirik.

Balaca Sitarə beləcə həyat imtahanlarından, təbiət sınaqlarından mərdliklə keçir. Onun 5-6 yaşında xəmir yoğurub çörək salmağı, qardaşının, bacısının paltarını yumağı... bəlkə də kimlərəsə qeyri-adi görünə bilər, ancaq belə bir həyatı yaşamış bir şahid kimi deyirəm ki, bəli, dağlar insanı belə sınaqlardan da keçirə bilir və insan hələ uşaqkən böyük insan olmağını bu sınaqlardan keçərək sübut edir.

Əlbəttə, belə sınaqlarda hamı alın açıqlığı ilə keçə bilmir. Balaca Sitarənin yaddaşından gələn faktlar isə bizə diktə edir ki, uşaq gücünün haraya qədər olduğunu bilməyənlər də az deyil. Sitarənin 7-8 yaşı olan böyük qardaşı yaylaqdan iki öküzü gətirərkən uşağın qabağından öküzlərdən biri uçuruma düşür, tələf olur. Uşaq özü yağışa düşür, borana düşür, amma öküzün birini gətirib arana çıxarır. O yolları getmiş bir şahid kimi deyirəm ki, Allahı unutmasan, gərək yada salasan ki, bu yolu maşın iki günə gedirdi. Və bu faktı elə müəllifin özü də xatırladır. İndi bu sözləri yazarkən müasir yolları və müasir avtomobilləri yox, gərək həmin dövrün nəqliyyat imkanlarını və yollarını da unutmayasan. Bir öküzü gətirib çıxaran uşağın mükafatı isə bu olur ki, bibisi ona deyir: *"Öküz ölüncə, sən özün öləydin".* Beləcə, əsər boyu biz nadir düşüncə qarşılaşmaları ilə üz-üzə gəlirik: *"Hərdən mənə elə gəlir ki, bütün dünyanın yazarları yığılsa belə, Tanrının bizə lütf etdiyi bu heyrətamizlikləri yazıb qurtara bilməz".* Zənnimcə, bu, elə bir tezisdir ki, həm müəllifin özünəqədərki yazıçıların həyatında təsdiq olunub, həm də onun özünün gəldiyi qənaətdir və bəlkə də bundan sonrakı sənətkarlarda da elə bu qənaətlər doğru olaraq qəbul olunacaq. Əsərdə təbiətlə bağlı o qədər nadir məqamlar var ki, hamısını sadalamaq olmur. Dumanın, çənin yolu örtdüyü, səmti gizlədiyi məqamları bəlkə də Ulduz Qasım qədər reallığı ilə təsvir edən ikinci bir müəllif yoxdur.

...Ulduz Qasımın *"Tələbə gündəliyi"* povestində bir neçə möhtəşəm obraz var. Ata - Mərdan, ana - Sona... hələlik bu adları çəkək. Bütün hallarda Sonra obrazları müqayisə etmək imkanı yaradır və bu müqayisələrlə biz kimin kim olduğunu aydınlığı ilə dərk edirik. Ata Mərdanın timsalında zəngin bir aləm görürük. O, ən mübahisəli məqamlarda təmkinə, ağıla güvənir. Həyat göstərir ki, onun təmkinə, ağıla güvənməsi insan təbiətinin çətinliklərə qalib gəlməyinin nümunəsi olur.

Böyük ailənin sahibi olan Mərdanın kimliyi onun birinci növbədə övladları ilə üzə çıxır. Bu adam ağzı bütövdür. Bir insan olaraq ləyaqətlidir. Hətta təklikdə olsa belə, danışanda ağzından söyüş çıxarmır. Ən başlıcası, halallığa tapınır. O, yanındakı çobanların oğurluq etmək niyyətlərinin qarşısını ala bilmir. Onda özünəxas bir çıxış yolu tapır: *"Xeyli vaxt idi yaylağa qalxmışdıq. Əyriqardaydıq. Çobanların aralarında danışdıqlarını eşitdim. Gecə düşəndə, Naxçıvan obasının qoyunlarını oğurlamağa gedəcəkdilər. Nə etdimsə onları bu fikirdən daşındıra bilmədim. Axşamın düşməyini gözlədim. Həmin yerə gedib gizləndim. Çobanların yaxınlaşdığını görəndə qoyunları ürküdüb qovdum. Heyvanların təlaşına sahibləri xəbər tutdular. Kişi də oğurluq edər?! Allah nə vermişsə, onunla yaşayacaqsan, çalışıb zəhmət çəkəcəksən".* Bir atanın dilindən səslənən bu həyat etirafları əslində onun yaşam düsturudur. Ömrü necə yaşamaq, həyat tərzini necə qurmaq, qazanılmış təcrübənin öz təbiətində yaşarlıq haqqı almış keyfiyyətlərin yeni nəslə ötürülməsi baxımından bu etiraflar çox qiymətlidir.

Sözün həqiqi mənasında Mərdan kişi bir şəxsiyyət olaraq təmkini ilə fərqlənir. Hətta ən gərgin məqamlarda belə təmkini ona imkan verir ki, çıxış yolunu asanlıqla tapsın. İnsanlıq onun üçün birinci şərtdir.

Əsər boyu Sitarə ən çətin məqamlarda atası ilə daxilən məsləhətləşir. Onun hansı vəziyyətdə çətinliyi necə həll edə biləcəyini gözlərinin önünə gətirir. Söyüşcül qonşunun tənbehini də verərkən elə ağayana, elə dürüst yanaşma ilə münasibət bildirir ki, qonşusu da onun təkzib olunmayan dəlilləri qarşısında silahsızlaşır. Hətta öz səhvini belə etiraf edir.

Həqiqətən bir ata övladlarının yanında, xüsusilə qız övladlarının yanında söyüşlə danışırsa, bunun yeniyetmənin yaddaşında necə iz buraxacağını elə bəri başdan təsəvvür etmək mümkündür. Axı insan yaddaşı, xüsusilə gənclik çağlarında eşitdiklərini asanlıqla unutmur. Biz Mərdanın və ümumiyyətlə, Mərdan kimi insanların təkcə öz ailələri üçün deyil, bütöv cəmiyyət üçün necə bir təsir gücündə olduğunu onun mövqeyindən görə bilirik. Əslində, ətrafındakı olan insanların mənəvi mühitini məhz öz təbiəti ilə tənzimləyir. Qonşuya dediyi sözlərə diqqət edək: *"Söyüş söydüyünü heç vaxt eşitməmişdim. Qardaşlarım da belədir. Bunun yaxşı iş olmadığını deyirdi. Dağda qonşumuz hər zaman söyüşlə danışardı. Çaşqınlıqla bir-birimizin üzünə baxardıq. Atam tez-tez qonşunu danlayardı: -Yekə kişisən, adam da arvad-uşağın yanında söyüşlə danışar? Evində qızın var, ayıb deyil?*

*Qonşumuz utandığından bilmirdi nə desin: - Sən Allah, məni bağışlayın, əsəbiləşəndə özümə hakim ola bilmirəm.*

*Bəzən öz-özünə deyinərdi.*

*- Bu insanların dini, imanı yoxdu? Hansı dinə qulluq edir bunlar? Allah sizi islah etsin.*

*O, həm də mənim ilk dini müəllimimdir. İçimdəki suallara cavab tapmayanda elə bil üzümdən oxuyurdu.*

*Qızım, görə bildiyin və görə bilmədiyin yerin, göyün yaradanı tək Allahdır. Biz istəsək, bir ot bitirə bilərikmi? Adı bir yarpaq, çiçəyin bir ləçəyini yarada bilərikmi? Əlbəttə, yox. Canlını da, cansızı da yardan Odur".* Əlbəttə, burada mistik əhval da duyulur. Ancaq məntiq ona xidmət edir ki, insan həyatını sağlam normalar üzərində qurmalıdır. Onda yaşadığı ömrün ayrı-ayrı pillələrində peşmançılıq hissi keçirməz. Yaşadığı ömür ona güc qaynağı olar. Bir daha o fikrə qayıtmaq yerinə düşər ki, Mərdan kimi insanların cəmiyyətdə varlığı həyatın sağlam harmoniyası üçün əsas təminat mənbəyidir.

...Mərdan ailədə təkcə qazanc mənbəyi deyil. O, ailəni dolandırmağın, uşaqları böyütməyin özünün gücündən asılı olduğunu yaxşı bilir. Ancaq onu da yaxşı bilir ki, uşaqlar təkcə maddiyyatla, paltarla, ərzaqla böyümür. Uşaqlar həm də sağlam mənəvi qida ilə böyüyürlər. Ona görə də öz övladları ilə münasibətini insanpərvər bir ata olaraq axıra qədər qoruyub-saxlayır. Hətta uşaqlarından birinin hansısa bir səhvi olsa belə, bunu betər bir qəbahət kimi onların üzünə vurmur. Ustalıqla, doğmalıqla səhvi düzəltməyin yolunu göstərir. Mərdanın tərbiyədə uğurunu təmin edən əsas amil onun ailədə səmimiyyətidir.

Sitarənin anası Sona da çox zəhmətkeş, övladların hər cür əziyyətini çəkməyə qadir olan bir anadır. Onun analıq hissi bütün hallarda ailə üçün necə məsuliyyət daşıdığının təminatçısıdır. Hətta ana bəzən övladlarını sərt şəkildə danlayanda belə ata xüsusi təzyiqlə, sərtliklə onun qarşısını almır. Amma ustalıqla vəziyyəti dəyişməyə çalışır. Onun müdaxiləsi ana ilə uşaqlar arasında soyuqluq yaratmır, münasibəti bir qədər də gücləndirir. Uşaqların səliqəsizliyi, ana tapşırığını yerinə yetirməyə səhlənkar yanaşmaları da ana sərtliyi ilə qarşılaşanda ata yenə münasibəti tənzimləmək üçün doğma yanaşma ilə ananı da sakitləşdirə bilir: *"Sona, uşaqları çox danlama, sözü bir dəfə de. Başa düşəndə öz səhvlərini düzəldəcəklər. Qoy, dərslərini hazırlasınlar. Gələcəkləri var".* Zənnimcə, bu sözlər bir ata düşüncəsindən əlavə, həm də sanki ustad bir pedaqoqun qənaətləridir. Əslində elə bütün uşaqları gələcək üçün böyüdürük. Uşaqlar isə gələcək üçün silahsız böyüyürlərsə, mənəvi cəhətdən şikəst böyüyürlərsə, onda cəmiyyət onlardan çətin ki, fayda görə bilsin.

Uşaqların tərbiyəsində Mərdanın bir üstün cəhəti də əsərdən qabarıq şəkildə keçir. O, uşaqlarını təbiətlə təmasda böyüdür. Uşaqlar təbiət haqqında məktəbdə öyrəndiklərindən əlavə, həm də atalarından daha geniş, daha zəngin, daha həyati məlumatlar ala bilirlər. Sitarə atası ilə anasının münasibətini də çox yüksək dəyərləndirir. Onlar heç vaxt bir-birinə *"səni sevirəm"* nəğməsi oxumurlar. Amma bütün həyatları boyu bir-birinə dayaq dura bilirlər. Birinin bacardığı iş müəyyən həddə çatıb dayanırsa, o biri sanki həmin işi elə oradanca davam etdirir. Bu atanın, bu ananın təbiətlərindəki gözütoxluq, olana qane olmaq hissi sağlam bir ailənin özülünə çevrilir. Sitarə atasını tərənnüm edərkən, atasının aparıcı gücünü göstərərkən, anası ilə qarşılıqlı münasibətinə xüsusi işıq salır: *"Onun anamıza olan münasibəti ailə həyatı üçün dəyərsiz örnəkdir. Anam nə qədər əsəbiləşsə də, atam həmişə onu sakitləşdirməyə çalışardı: Özünü niyə əsəbiləşdirirsən? Hər şey düzələr, olduğuna varar. Kim bu dünyadan nə aparıb ki, biz qalaq?*

*Həmişə işdən gələndə ortaya çay gələn kimi anamı da çağırardı: Gəl, çay iç. İş qaçmır.*

*Bizə ona kömək etməyimizi tapşırardı: Ananıza kömək edin, siz çoxsunuz, o təkdir. Unutmayın, onun qədrini bilin".* Sitarənin atası 9 yaşından anasız böyüyüb. Özü demiş, çəkmədiyi zəhmətlər qalmayıb. Əslində Mərdan özünün atasızlıq, anasızlıq əzablarını, acılıqlarını həyatında yaşadığı üçün atasından, anasından görmədiyi mehri, məhəbbəti ikiqat övladlarına vermək istəyir və bu zaman mövqe üstünlüyü niyyətində olmur. Ananı da özü ilə birgə mənəvi ucalıqda görür və onun yerini hər vaxt qoruyur.

Mərdanın oğul övladlarına da münasibəti birmənalıdır. Birinci növbədə, Mərdan oğullarına öz həyat yoldaşları ilə necə davranmağı özünün həyat tərzi ilə göstərir. Onun bu sözləri də çox dəyərlidir: *"Həyat yoldaşlarınıza əl qaldırmayın. Kişi qadına əl qaldırmaz. Nə olursa-olsun, söz-söhbət yaratmayın. Mehriban olun. Övladlarınızı da belə böyüdün. Xanımınızı aldatmayın, bundan günah şey yoxdur. Əyrilikdən, oğruluqdan uzaq olun, ailənizə haram tikə yedirtməyin".* Əgər Mərdan təbiət etibarı ilə sağlam adam olmasaydı, yəqin ki, heç bu sözləri də övladlarına bu cür könül açıqlığı ilə deyə bilməzdi.

Ən üstün təlqin ailədə şəxsi nümunədir.

**07.06.2022**